# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 iyun tarixli 120 nömrəli Qərarı ilə təsdiq edilmiş "Koronavirus pandemiyası dövründə Naxçıvan Muxtar Respublikasında uçuşların və hava nəqliyyatı ilə sərnişin daşımalarının təşkili üzrə müvəqqəti Qaydalar"da dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 14 aprel tarixli 152 nömrəli Qərarına uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 iyun tarixli 120 nömrəli Qərarı ilə təsdiq edilmiş "Koronavirus pandemiyası dövründə Naxçıvan Muxtar Respublikasında uçuşların və hava nəqliyyatı ilə sərnişin daşımalarının təşkili üzrə müvəqqəti Qaydalar"da aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.1.1-ci yarımbəndin üçüncü cümləsi aşağıdakı redaksiyada verilsin:

"Ölkədaxili uçuşlar zamanı sərnişinlərdən koronavirusa dair PCR testin neqativ nəticəsini təsdiq edən sənəd tələb olunmur;".

**Naxçıvan Muxtar Respublikasının Baş naziri** **Səbuhi Məmmədov**

Naxçıvan şəhəri, "4" may 2022-ci il

№ 112